Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan cəmiyyəti yüksək siyasi mədəniyyət göstəriciləri baxımından dünya liderləri sırasındadır

## İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

**Müasir cəmiyyətlərdə hakimiyyətin, liderlərin, cəmiyyətin siyasi mədəniyyəti daim xüsusi diqqət mərkəzində yer alır, fəal şəkildə müzakirə olunur. Bu fonda getdikcə daha çox gənclərin siyasi mədəniyyətinə, onun demokratik cəmiyyətdə xüsusiyyətlərinə və əhəmiyyətinə də ayrıca diqqət yetirilir.**




Məsələ burasındadır ki, vətəndaş-vətənpərvərlik hisslərinin inkişafı üçün cəmiyyətin gənclər təbəqəsinin siyasi fəallığının göstəriciləri nin yüksək olması şərtdir. Bu mənada Azərbaycanda cəmiyyətin., xüsusən onun gənclər təbəqəsinin siyasi fəallıq dərəcəsinin yüksək olduğunu qeyd etmək olar. Hər halda Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyası bunun ən parlaq nümunələrindən biridir.

**Azərbaycan gəncləri siyasi, sosial proseslərin fəal iştirakçılarıdır**

Xüsusi olaraq qeyd olunmalıdır ki, həmin etiraz aksiyasının iştirakçılarının əksəriyyətini gənclər təşkil edir. Özü də aksiyanın məqsədinin Azərbaycan cəmiyyəti ilə yanaşı, dünya birliyinə çatdırılmasında da əsas fəallıq yenə gənclərə məxsusdur.

Sözügedən aksiya onun da təzahürüdür ki, müasir Azərbaycan cəmiyyətinin ictimai-siyasi həyatında baş verən sosial dəyişikliklər gənclərin siyasi fəaliyyətdə fəallığının yüksəlməsinə, siyasi proseslərdə iştirak etmələrinin yüksəlməsinə gətirib çıxarıb. Bu, nəticədə cəmiyyətdə yüksək siyasi mədəniyyətin formalaşması üçün zəruri əhəmiyyət kəsb edir. Bu şəraitdə gənc nəslin cəmiyyətin siyasi həyatına cəlb edilməsi prosesi getdikcə asanlaşır. Hər halda Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyasında çoxsaylı gənclərin könüllü iştirakı da qeyd edilənlərin faktiki təsdiqidir. Məsələyə münasibət bildirən gənclər və idman naziri Fərid Qayıbov da qeyd edir ki, Laçın yolunda keçirilən etiraz aksiyasının iştirakçılarının əksəriyyətini gənclər təşkil edir: "Onlar ərazidə həm fotolar, həm də video çəkirlər. Orada həm könüllülər, həm də gənclər təşkilatlarının üzvlərinin iştirak etdiyini görürük. Bu normaldır, çünki gənclər hər yerdə və ümummilli məsələlərdə birinci olmalıdırlar. Azərbaycan gəncləri hər zaman öz dövlətinin yanındadırlar". Nazir onu da qeyd edib ki, ümumiyyətlə, aksiyada iştirak edənlər sadə gənclərdir: "Onlar öz təşəbbüslər ilə həmin əraziyə getmək istəyirlər. Bizim gənclərimiz hər bir çağırışa hazırdırlar. Əhalimizin dörddəbir hissəsi gənclərdən ibarətdir. Gənclər cəmiyyətin fəal iştirakçılarıdır. Gənclərimiz və gənclər təşkilatları aktivdirlər".

Qeyd etmək lazımdır ki, məhz gənclərin siyasi mədəniyyəti bütün dünyada olduğu kimi Azərbaycanda da siyasi sistemin dinamikasına fəal təsir göstərir. Bu hal siyasi prosesdə təcəssüm olunur, onun istiqamətini, iştirakçıların rol təyinatlarını böyük ölçüdə müəyyən edir, proseslərin dəyərlərlə bağlı xüsusiyyətlərinə təsir edir. Beləliklə, yekun nəticə cəmiyyətin sabitlik və inkişaf səviyyəsinə, sosial-iqtisadi durumuna birbaşa təsir edir. Ümumiyyətlə, siyasi transformasiyaların mühüm aləti olan gənclərin siyasi mədəniyyəti, əsasən, toplumun sabitliyini və bütövlüyünü şərtləndirən siyasi davranış standartlarını və fəaliyyət modellərini özündə daşıyır. Gənclərin siyasi mədəniyyətinin proseslərə təsir mexanizmlərinin və meyllərinin müəyyən edilməsi sonda siyasi sferada effektiv proqnozlaşdırma potensialı yaradır. Bu, həm də kənar təhdidlərin səmərəli neytrallaşdırılmasına imkan verir. Qeyd olunan fonda qətiyyətlə söyləmək mümkündür ki, Xankəndi-Laçın yolundakı dinc etiraz aksiyası gənclərimizin, bütövlükdə xalqımızın xarici təhlükə qarşısında həmrəylik nümayişidir. Milli Məclisin deputatı Elnur Allahverdiyev bu müstəvidə bildirir ki, ekofəalların Xankəndi-Laçın yolundakı aksiyası Azərbaycan cəmiyyətinin, xalqımızın ümummilli problemlər qarşısında birliyinin bariz göstəricisidir: "Vətəndaş cəmiyyəti ölkədəki ictimai rəyin inikasıdır. Xalqın nə demək istədiyinin carçısıdır. Bu baxımdan, bir tərəfdən hesab etmək olar ki, bu bir ümumxalq aksiyasıdır, digər tərəfdən isə xarici təhlükə qarşısında birlik, həmrəylik nümayişidir".

**Müasir siyasi cəmiyyət quruculuğu istiqamətində genişmiqyaslı işlər görülür**

Bir məqamı da vurğulamaq zəruridir ki, siyasi mədəniyyət dinamik, inkişaf edən, ətraf aləmdə baş verən dəyişikliklərə həssas olan bir fenomendir. Lakin siyasi mədəniyyət ictimai-siyasi strukturdan daha ləng dəyişir, çox vaxt cəmiyyətin yeni şərtlərinə uyğunlaşmağa vaxt tapmır. Buna rəğmən, yalnız yeni demokratik münasibətlərin belə təzahürü müasir siyasi cəmiyyət üçün sabit daxili və sosial zəmin yaradır.

Cəmiyyətin mövcudluğunun hər bir mərhələsi müəyyən siyasi mədəniyyət səviyyəsinə malikdir. Bu mənada Azərbaycan yenidən müstəqil dövlət kimi mövcudluğu cəmiyyətdə siyasi mədəniyyətin yüksək templərlə inkişafına əlverişli zəmin yaradıb. Təsadüfi deyil ki, Azərbaycan cəmiyyəti yüksək siyasi mədəniyyət göstəriciləri baxımından dünya liderləri sırasındadır. Xüsusən də gənclərin siyasi mədəniyyətinin formalaşmasının əhəmiyyəti Azərbaycan cəmiyyətinin sosial-iqtisadi əsaslarında baş verən dəyişikliklərin dinamikliyinə səbəb olur. Bu şərtlər daxilində daha aktual məsələ gənc nəslin cəmiyyətin siyasi həyatına cəlb edilməsidir. Azərbaycanda bu səpkidə görülən işlər sayəsində gənclər ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Yenə də Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyası bunun real nümunəsidir. Bütünlükdə isə Azərbaycan dövlətinin gənclər siyasətinin əsas məqsədi də gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakını artırmaq, ölkənin gələcək inkişafında məsuliyyətlərini yüksəltməkdir. Ümumiyyətlə, dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Bundan sonra da gənclər bu xüsusda üzərlərinə düşən missiyanı layiqincə yerinə yetirməyə hazırdırlar. Təbii ki, belə vəziyyət öz növbəsində Azərbaycanda cəmiyyətin siyasi mədəniyyət səviyyəsinin davamlı yüksəlişinə də öz töhfələrini verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**